

**Babayev Əlican Pirican oğlu**

**i.e.d. prof.**

Azərbaycan Dövlət İqtisad Universiteti

Bakı ş. Az 1001, İstiqlaliyyət küç., 6.

ababayev@rambler.ru

UOT (479.24) 330.101.2:330.85:330.82

# MÜASİR İQTİSADİ NƏZƏRİYYƏDƏ STRUKTUR PROBLEMLƏRİ

səh. 51-62

## Xülasə

*Tədqiqatın məqsədi* – müasir iqtisadi nəzəriyyənin əsas struktur hissələrinin təhlili.

*Tədqiqatın metodologiyası* – dialektik və subyektivçi yanaşma.

*Tədqiqatın nəticələri* – müasir iqtisadi nəzəriyyənin əsas struktur hissələri qismində sosial-iqtisadi nəzəriyyə (siyasi iqtisad), məhdud resurslardan rasional istifadə nəzəriyyəsi (ekonomiks) və institusional iqtisadi nəzəriyyənin olması əsaslandırılmışdır.

*Tədqiqatın məhdudiyyətləri* – müasir iqtisadi nəzəriyyənin əsas struktur hissələrinin elmi cəhətdən hərtərəfli araşdırılmasına ehtiyac vardır.

*Tədqiqatın praktiki əhəmiyyəti* – tədqiqatdan əldə edilmiş nəticələr və irəli sürülən təkliflər iqtisadi nəzəriyyə fənninin tədrisi prosesində istifadə edilə bilər.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* – müasir iqtisadi nəzəriyyənin əsas struktur hissələri arasındakı fərqlər verilmişdir.

**Açar sözlər:** *siyasi iqtisad, ekonomiks, institusional iqtisadi nəzəriyyə, klassik və neoklassik iqtisadi nəzəriyyə, əmək-dəyər və son faydalılıq həddi nəzəriyyəsi.*



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

## 1. Giriş

Hazırda dünya iqtisad elmində ümumnəzəri xarakterli iqtisadi problemlər müasir iqtisadi nəzəriyyənin daxilində tədqiq edilir. Müasir iqtisadi nəzəriyyə dedikdə nə başa düşülür? Nə isə hələ mövcud olmayan, lakin işlənib hazırlanması zəruri olan və ya illər boyu artıq toplanmış elmi biliklər və onların yenidən qiymətləndirilməsi, dəyərləndirilməsi nəzərdə tutulur.

## 2. Klassik "siyasi iqtisad"ın yaranması

Tarixən ümumi iqtisadi nəzəriyyə rolunu oynamaq iddiasında olan ilk elmi məktəb 400 il bundan əvvəl siyasi iqtisad adı ilə meydana gəlmişdir. Bu adı elmə 1615-ci ildə fransız merkantilisti Antuan Monkretyen "şəhərin dövlət əmlakının idarə edilməsinə" həsr olunmuş "Siyasi iqtisad traktatı" əsərində gətirmişdir [1] Cəmiyyətin iqtisadi münasibətlərini və onun obyektiv iqtisadi qanunlarını araşdıran siyasi iqtisadın predmeti haqqındakı bugünkü təsəvvürün, vaxtı ilə A.Monkretyenin istifadə etdiyi siyasi iqtisad anlayışı ilə çox az əlaqəsi vardır. A.Monkretyenin siyasi iqtisad adından istifadə etməsi fransız dilli iqtisadçılar üçün heç bir sirr deyildir. Fransız dilində "iqtisadiyyat" anlayışını ifadə etmək üçün "economie" sözündən istifadə olunur, onun da ilk elmi mənası ayrıca təsərrüfat deməkdir. Əgər A.Monkretyen öz əsərini "İqtisadiyyat traktatı" (*"Трактат по экономии"*) adlandırsa idi, onda bu ayrı-ayrı təsərrüfatların idarə edilməsi haqqında tədqiqat mənasını verərdi. Təsərrüfatın bütövlükdə dövlət çərçivəsində idarə edilməsini göstərmək üçün o "siyasət" (*politika*) sözünü əlavə edib, belə ki, bu sözün kökü "polis" olub, yunan dilindən tərcüməsi şəhər, dövlət deməkdir. Elmin adında işlədilən "siyasi" anlayışı "ictimai" kimi başa düşülməlidir. Siyasi iqtisadın banilərinə görə dövlətdən başqa digər cəmiyyət nümunəsi yox idi, dövlət isə məhz onların yaşadığı cəmiyyət idi. "Siyasi iqtisadın" adı "ictimai təsərrüfat", "milli iqtisadiyyat" kimi tərcümə olunur, təkcənin və ümuminin qarşılıqlı əlaqəsini, ictimai orqanizmin iki tərəfini-institusional-ictimai (*şəhər, dövlət*) və fərdi, xüsusi (*fərdlər, ayrı-ayrı təsərrüfatlar*) tərəflərin bilavasitə birliyini, "mikroiqtisadiyyatın" və "makroiqtisadiyyatın" birliyini göstərir. "Siyasi iqtisad" anlayışının birinci hissəsinin siyasətlə (*siyasətin başlıca məsələsihakimiyyəti ələ keçirmək və saxlamaqdır*) heç bir əlaqəsi olmayıb təsərrüfatı dövlət çərçivəsində, milli iqtisadiyyatı, yəni ayrı-ayrı təsərrüfatların məcmu kimi cəmiyyəti vahid tam halda ifadə edir. Beləliklə, "siyasi iqtisad" anlayışının tərcüməsi təsərrüfatın bütövlükdə dövlət çərçivəsində idarə etmək qanunları, qaydaları mənasını verir.

Siyasi iqtisad elminin adı onun hüdudları və predmetinin məzmununun dəqiq müəyyən olunmasından tez meydana gəlmişdir. Qeyd edək ki, əslində lap əvvəldən siyasi iqtisadın milli iqtisadiyyat məktəbi şəklində öz opponentləri olmuşdur. Bu halda "milli iqtisadiyyat" (*"national ekonomie"*) anlayışının özünü siyasi iqtisadın

alternativikiminəzərdən keçirmək lazımdır. F.Listin vətarixi məktəbin digər iqtisadçılarının əsərlərində iqtisadiyyatda ümumi obyektivqanunların mövcud olmasının qəbul edilməməsi haqqında dəlillər irəli sürülmüş və klassik siyasi iqtisadı kosmopolitizmə görə, yəni milli mənafeləri və hər bir ölkənin milli inkişafının özünəməxsus yollarını nəzərə almamağa görə tənqid etmişlər.Bu cür tənqid ona əsaslanırdı ki, hər bir xalq (*milli*) təsərrüfatı bir sıra məcmu amillərin təsiri altında yaranan orijinallığa və təkrarsızlığa malikdir. Buna görə də iqtisadinəzəriyyənin (*siyasi iqtisadın*) predmeti nəsərvəti, nə istehsal münasibətlərinivə nə də təcrid olunmuş fərdindavranışını deyil, xalq (*milli*) təsərrüfatı vəonun fəaliyyət xüsüsiyyətlərini müəyyənləşdirir. F.Listin ardınca "tarixçilər" iqtisadi nəzəriyyəni təsərrüfatın inkişafının ümumi qanunları haqqında elm kimi deyil, xalq (*milli*) təsərrüfatı haqqında elm kimi nəzərdən keçirir. Beləliklə, göstərilən alternativlik təkcə sırf terminoloji məqamlarla məhdudlaşmayıb, elmin predmeti və obyektində də prinsipial məzmun fərqlərinə malikdir.

Kapitalist iqtisadi sisteminin bərqərar olması, merkantilizmin süquta uğraması, tədqiqatın tədavül sahəsindən, istehsal sahəsinə keçirilməsi, siyasi iqtisadı artıq istehsalın, bölgünün, mübadilənin və istehlakın qanunlarını, məhsulların bölgüsünün antaqonist xarakter alması səbəblərini cəmiyyətin iqtisadi ziddiyyətlərini araşdıran elmə çevirir. Siyasi iqtisad özünün klassik mərhələsinə istehsalın, bölgünün, mübadilənin və istehlakın qarşılıqlı əlaqələrini, onların obyektiv iqtisadi qanunlarını, faktiki olaraq kapitalist təsərrüfat sisteminin istehsal münasibətlərinin bütov məcmusunu öyrənən elm kimi daxil olmuşdur. Bu öz əksini A.Smitin "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" (*1776*), D.Rikardonun "Siyasi iqtisadın və vergi qoyulmasının əsasları" (*1817*) və başqa əsərlərində tapmışdır. A.Smit və D.Rikardodan başlayaraq, K.Marksın "Kapital"ı da daxil olmaqla siyasi iqtisad klassik istiqamətdə inkişaf etmiş və fəaliyyət göstərmişdir. Siyasi iqtisadın klassik istiqaməti üçün çıxış nöqtəsi - dəyərin maddi istehsalda sərf edilən və ictimai zəruri iş vaxtı ilə ölçülən əməklə müəyyən olunmasıdır. Dəyər - bütün iqtisadi proseslərin ümumi əsası, universal ölçüsü, metodoloji cəhətdən bütün iqtisadi kateqoriya və qanunlar sisteminin deduktiv əsası kimi çıxış edir.

## 3. Neoklassik iqtisadi nəzıriyyənin ("ekonomiks") meydana gəlməsi

XIX əsrin axırları XX əsrin əvvəlləri iqtisadi nəzəriyyədə tamam yeni bir istiqamət də meydana çıxdı. Əmək-dəyər nəzəriyyəsindən imtina edilməsi, onun yerini son faydalılıq həddi nəzəriyyəsinin tutması, müvafiq terminoloji dəyişikliklərlə birlikdə aparıcı elmi məktəb kimi yeni bir elmi məktəbin meydana gəlməsinə gətirib çıxardı. Siyasi iqtisad anlayışı ilə yanaşı daha məhdud, neytral iqtisadi anlayış - "ekonomiks" (*economics*) anlayışı da geniş surətdə işlədilməyə başlanılmışdır. Bunu ilk dəfə U.Cevons "Siyasi iqtisadın nəzəriyyəsi" (*1871*) və daha sonra A.Marşall

"Ekonomiks prinsipləri" (*1890*) əsərlərində göstərmişlər. 1902-ci ildə A.Marşall ilk dəfə Kembric Universitetində "Ekonomiks" kursundan mühazirə oxumuş və bununla da Con Stüart Millin klassik məktəbinin siyasi iqtisad kursunu dəyişdirmişdir. O vaxtdan bəri Qərbdə siyasi iqtisad öz inhisar mövqeyini itirmişdir. U.Cevons və A.Marşaldan başlayan ekonomiks iqtisadi nəzəriyyənin digər, necə deyərlər neoklassik qolunu əks etdirərək, insanların istehsal fəaliyyətlərinin nəticələrini istehsal-əmək əsasında deyil, istehlak - faydalılıq prinsipi əsasında müəyyən olunması ilə xarakterizə edir. Siyasi iqtisadın neoklassik istiqamətində marjinalizm nəzəriyyəsi mərkəzi yer tutur. Marjinalizm (*"marginal" fransız sözü olub, mənası "hədd" deməkdir*) bazis anlayışı kimi son hədd kateqoriyalarına əsaslanan faydalılıq həddi nəzəriyyəsindən ibarətdir. Onun əsas kateqoriyaları: alternativ dəyər, faydalılıq həddi, məsrəf həddi, əvəzetmənin hədd norması və başqalarıdır. Bu nəzəriyyə əsasında müxtəlif iqtisadi proseslərin optimallaşdırılmasının nəzəri və praktiki cəhətdən həll edilməsi istiqamətində tədqiqatlar geniş yayılmışdır.

## 4. "Siyasi iqtisad" və "ekonomiksin" nisbəti

İngilis-amerikan ədəbiyyatında "ekonomiks» və "siyasi iqtisad" anlayışlarına sinonim anlayışlar kimi baxılır. Məsələn, A.Marşall əsərində belə bir ifadə işlədir: "Siyasi iqtisad, ya da iqtisad elmi (*Economics*)…," (2,s.56). Hazırda dünyanın əksər ölkələrində geniş işlədilən "ekonomiks" anlayışı iqtisadi nəzəriyyədə müəyyən terminoloji dolaşıqlığa gətirib çıxartmışdır. «Ekonomiks» anlamı Azərbaycan dilində "iqtisadiyyat", "iqtisad" kimi sözlərlə ifadə olunur. İngilis dilində "iqtisadiyyat", "iqtisad" anlayışlarını ifadə etmək üçün "ekonomy" sözündən istifadə olunur. Təsərrüfat sistemi kimi iqtisadiyyat- "ekonomy" sözündən fərqli olaraq, elm mənasında iqtisadiyyatın - "economics" ingilis termininin Azərbaycan dilində bir sözlə ifadə olunan birmənalı sinonimi yoxdur. "Ekonomiks" sözünün Azərbaycan dilində ən dəqiq qarşılığı (*analoqu*) olmadığına görə onu həm "siyasi iqtisad", həm "iqtisad elmi", həm "iqtisadi nəzəriyyə", həm "iqtisadiyyat", həm də "ekonomiks kimi müxtəlif cür tərcümə etmişlər. Bu tərcümələrin hər birində "ekonomiks" ifadəsinin mənası müxtəlif dərəcədə və müxtəlif səbəblərə görə təhrif olunur. ABŞ və Qərbi Avropa ölkələrində çox geniş yayılmış iki müxtəlif "Economics" dərsliklərini bəzi tərcüməçilər "İqtisadiyyat" (*"Экономика"*), bəziləri isə "Ekonomiks" başlıqları altında müxtəlif cür adlandırırlar. Məsələn, P.A.Samuelson və V.D.Nordxausun dərsliyi "İqtisadiyyat" (*"Экономика"*) [4], K.R.Makkonnell və S.A.Bryunun dərsliyi isə "Ekonomiks" adlanaraq müxtəlif başlıqlar altında gedir [5]. A.Marşallın "Ekonomiks prinsipləri" (*"Принципы экономикс"*) kitabı rus dilinə gah "Siyasi iqtisadın prinsipləri" (*"Принципы политической экономии"*), gah da "İqtisad elminin prinsipləri" (*"Принципы экономической науки"*) kimi tərcümə edilib. Azərbaycan dilində "Ekonomiks" anlayışını ifadə etmək üçün mənaca adekvat termin olmadığına

görə, onun gələcəkdə iqtisadi nəzəriyyə kimi tərcümə edilməsi həqiqətə bir qədər yaxın olardı.

Ekonomiksdə qoyulan iqtisadi problemlər öz mahiyyəti etibarilə klassik məktəbin nümayəndələrinin siyasi iqtisadda qoyduğu problemlərdən heç də fərqlənmir. Burada bütünlükdə iqtisadi sistem, iqtisadi münasibətlərin müxtəlif tipləri, ilk növbədə bazar iqtisadiyyatında və müəyyən dərəcədə qeyri-bazar iqtisadi sistemlərində iqtisadi münasibələr təhlil edilir. Qeyd etmək lazımdır ki, ingilis dilli ədəbiyyatlarda siyasi iqtisad və ekonomiks anlayışlarına sinonim anlayışlar kimi baxılır. Bu baxımdan, ekonomiksə Qərb dünyasında siyasi iqtisadın ən geniş yayılmış müasir variantlarından biri kimi baxmaq olar [6, s.126-127]. Bu, siyasi iqtisadın və ekonomiksin müasir iqtisadi nəzəriyyənin iki istiqamətinin, qolunun olmasını təsdiq etməyə imkan verir. Bundan başqa, müasir ekonomiksin klassik istiqamətlə varislik əlaqəsini ekonomiksin tərəfdarlarının A.Smiti özlərinin sələfi, D.Rikardonu isə son hədd təhlilinin banisi adlandırmalarından və klassik J.B.Seyin istehsal amilləri nəzəriyyəsinə istinad etmələrindən də aydın görmək olar. A.Marşall A.Smit barəsində yazır: “Bütün əsas sosial aspektləri ilə birlikdə sərvət haqqında elmi əsəri birinci olaraq məhz o yazmışdır, təkcə elə buna görə o, müasir iqtisadi nəzəriyyənin banisi rolunu oynamağa iddia edə bilər” [3, s.190].

Beləliklə, Smit-Rikardo iqtisadi təlimindən başlayaraq eyni tarixi kökdən törəyən iqtisadi nəzəriyyənin bir-birinə zidd olan müxtəlif qollarının - klassik və neoklassik istiqamətlərinin inkişafı başlayır. Klassik istiqamət qiymətə dəyərin daxili substansiyasının (*əsasının*) pulla ifadəsi kimi baxmaqla əmək - dəyər nəzəriyyəsini yaratmışdır. Neoklassik istiqamət isə qiyməti tələb və təklifin qarşılıqlı fəaliyyəti nəticəsində formalaşan kateqoriya kimi nəzərdən keçirməklə son faydalılıq həddi nəzəriyyəsini yaratmışdır. Marjinalizm nəzəriyyəsi dəyərsiz qiymət nəzəriyyəsi olmaqla marksist əmək - dəyər nəzəriyyəsinin alternativi kimi meydana gəlmişdir. Siyasi iqtisad əmək - dəyər nəzəriyyəsinə, ekonomiks isə son faydalılıq həddi nəzəriyyəsinə əsaslanır. Əksər hallarda iqtisadi ədəbiyyatda siyasi iqtisadın və ekonomiksin (*ekonomiks A.Marşallın tərifinə görə iqtisadi nəzəriyyədir*) müxtəlif elm olmasının əsasını bu və ya digərinin predmetinə ayrı-ayrı müəlliflərin verdikləri müxtəlif təriflərlə əlaqələndirirlər. Onlar iqtisadi nəzəriyyənin predmetinə və onun öyrəndiyi obyektə verilən nəzəri təriflərin çoxluğu haqqında tezisi irəli sürərək yuxarıdakı fikri əsaslandırmağa çalışırlar. Qeyd edirlər ki, klassiklər iqtisadi nəzəriyyənin predmetini sərvətin öyrənilməsində, K.Marks bu elmin predmetini cəmiyyətin istehsal münasibətləri və onun obyektiv iqtisadi qanunlarının araşdırılmasında, neoklassik istiqamət isə iqtisadi nəzəriyyənin predmetini insanların səmərəli davranışlarının (*seçimini*) tədqiq edilməsində görmüşlər.

İqtisad elminin inkişafı ümumelmi proseslərin tsikli qanunauyğunluqlarına uyğun baş verir. Hər bir elmin inkişafı fasiləsiz hərəkətdən ibarət olan dövriyyəni xatirladır: ümumi, inteqral predmet-predmetin hissələrə ayrılması və ixtisaslaşmış elmi is-

tiqamətlərin əmələ qəlməsi, ümumi predmetin dəqiqləşdirilməsi əsasında inteqrasiyası və s. İqtisad elminin inteqrasiya problemi hər şeydən əvvəl onun ixtisaslaşmış elmi istiqamətlərinin predmetlərinin də daxil olduğu inteqral predmetinin müəyyən edilməsi problemidir.

İnteqral, ümumi predmetodoloji təyinat axtarışı göstərir ki, A.Smitdən başlayaraq K.Marksda qurtarana qədər nəinki klassiklərin, habelə bütün iqtisadçıların tədqiqatlarının diqqət mərkəzində məhz sərvətin mənşəyi, bölgüsü və istifadə olunması durmuşdur. Sərvət dedikdə, onlar maddi nemətlərin istehsalı, bölgüsü və istehlakını nəzərdə tuturdular. Sual oluna bilər ki, nəyə görə bütün iqtisadçılar, məhz sərvətin araşdırılmasından başlayıblar?

Bizcə, ən əvvəl, ona görə ki, xalqların sərvətinin araşdırılmasının arxasında siyasi iqtisadın predmetinin araşdırılması dururdu. Aristotel "Siyasət" əsərində həqiqi sərvətdən, asan qazanc yolu ilə əldə edilən digər növ sərvətdən, sərvətin təbiəti, onun hədləri haqqında çox önəmli fikirlər söyləmişdir [7, s.389-393]. Azərbaycanın böyük mütəfəkkiri N.Tusi istehsal edilmiş sərvətə üç baxımdan yanaşmışdır: gəlirlər və onun mənbələri, məhsulun saxlanması (*mühafizəsi*) və xərclər, bir də onların istifadə olunması. O, gəlir əldə etməyin, sərvət toplamağın təbii-qanuni və qeyri-qanuni yollarını araşdıraraq göstərir ki, çalıb-çapmaq, zorla başqasının var-dövlətinə yiyələnmək heç də ölkədə sərvətin artırılmasına deyil, onun bir əldən başqa əllərə keçməsinə səbəb olur. Sərvəti artırmağın və artan tələbatın ödənilməsi üçün əsas yol namuslu əmək və sənətdir[8, s.90, 93, 150-151]. Sərvətin təbiəti və səbəbləri A.Smitin, onun bölgüsü isə D.Rikardonun tədqiqat predmeti olmuşdur. K.Marks sərvətə spesifik kapitalist formasında - kapital formasında baxmışdır. C.S.Mill siyasi iqtisadın predmetini "sərvətin mahiyyəti, onun istehsalı və bölgüsü qanunlarını" tədqiq edən elm olmasında görürdü [9, s.81]. Marginalizmin sələflərindən biri olan A.O.Kurno özünün əsas əsərini "Sərvət nəzəriyyəsində riyazi prinsiplərin tədqiqi" adlandırmışdır. Marginalizmin Amerika məktəbinin banisi C.B.Klark öz əsərlərinə "Sərvətin fəlsəfəsi» və "Sərvətin bölgüsü" adını verir. A.Marşall qeyd edirdi: "Siyasi iqtisad və ya iqtisad elmi (*Economics*) tədqiqat predmeti sərvət olan elmdir. O, bir tərəfdən sərvətin araşdırılmasından ibarətdir, digər tərəfdən isə insanı tədqiq edən hissəni təşkil edir"[2, s.56,59].

Aydındır ki, tarixi səpkidə elmin predmetinə baxışlar fərqli olsa da, onların hamısı oxşar məzmundadır və eyni gerçəklik haqqında müxtəlif mövqeləri əks etdirir. İstər klassik, istərsə də neoklassik istiqamətin nümayəndələri sərvəti iqtisadi nəzəriyyənin (siyasi iqtisadın) predmeti hesab etmişlər. A.Smit xalqların sərvətinin təbiəti və səbəbləri haqqındakı sualı öz kitabının adında verməklə, onun iqtisadi nəzəriyyənin predmeti haqqında baxışlarının bütün keçmiş və gələcək konsepsiyalarla bağlı olduğunu çox dəqiq göstərmişdir.

İqtisadi nəzəriyyənin predmetinin A.Smit və D.Rikardo tərəfindən verilmiş təriflərindən Qərb iqtisadçılarının müasir əsərlərində də istifadə edilir. Məsələn,

P.A.Samuelson aşağıdakıları Qərbin iqtisad ədəbiyyatında ən geniş yayılmış təriflər hesab edir [10, s.6-7]:

1) İqtisadi nəzəriyyə insanlar arasında mübadilə və pul sövdələşmələri ilə bağlı fəaliyyət növləri haqqında elmdir.
2) İqtisadi nəzəriyyə insanların nadir və ya məhdud istehsal ehtiyatlarından müxtəlif əmtəələr istehsalı üçün istifadə etməsi və onların istehlak məqsədilə cəmiyyətin üzvləri arasında bölüşdürülməsi haqqında elmdir.
3) İqtisadi nəzəriyyə insanların gündəlik işgüzar həyat fəaliyyəti, onların yaşayış vasitələri əldə etməsi və bu vasitələrin istifadəsi haqqında elmdir.
4) İqtisadi nəzəriyyə bəşəriyyətin istehlak və istehsal sahəsində öz vəzifələrinin öhdəsindən necə gəlməsi haqqında elmdir.
5) İqtisadi nəzəriyyə sərvət haqqında elmdir.

Gördüyümüz kimi, müasir ədəbiyyatda predmetin merkantilizm dövrünə aid ən erkən təriflərinə rast gəlirik, həmin dövrdə predmeti mübadilə qanunları haqqında elm kimi başa düşürdülər. Klassik dövrün iqtisadçılarından, A.Smitin fikrincə, istehsalı və mübadiləni də əhatə edən sərvət haqqında elm kimi, habelə D.Rikardonun nəzərə çatdırdığı bölgü kimi təriflər də geniş yayılmışdır. Göstərilən təriflərdə irəliləyiş ilk baxışdan, elmin gündəlik praktikaya istiqamətlənməsindən ibarətdir.

Qeyd etmək lazımdır ki, bütün iqtisadçıların diqqət mərkəzində sərvətin maddi substratı, onun ayrı-ayrı fərdlər tərəfindən istifadə edilməsi deyil, məhz insanların iqtisadi münasibətlərini araşdırmaq problemi durmuşdur. Cəmiyyətin sərvəti - hər şeydən əvvəl maddi formada, əşya formasında olan sərvətdən, tələbatı ödəyən nemətdən ibarətdir. Lakin iqtisad elmini əşyanın özlüyündə fiziki, kimyəvi və digər xassələri deyil, onun insanların maddi yaşayış şərtlərini təşkil etdiyi maraqlandırır. İnsanlar yaşamaq üçün həm də istehlak etməlidirlər. Bir halda ki, insanlar cəmiyyətdə yaşayırlar, əşyaları əldə etmək və həmin əşyalardan istifadə etmək üçün bir-biri ilə zəruri olan istehsal, bölgü, mübadilə və istehlak münasibətlərinə girməlidirlər. Deməli, iqtisad elmini həqiqətən sərvətin maddi substratı deyil, sərvətin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı proseslərini bir sistem şəklində araşdırmaq və onun inkişaf qanunlarını aşkara çıxartmaq  maraqlandırır.

İqtisadi nəzəriyyənin ümumi, inteqral predmeti iqtisad elmləri inkişaf etdikcə tərkib hissələrə bölünür. Diqər tərəfdən isə o, müxtəlif istiqamətlərin ixtisaslaşmasına təkan verərək, ayrı-ayrı xüsusi fənlərin meydana gəlməsinə səbəb olur. Qeyd etdiyimiz kimi, klassik siyasi iqtisad özlüyündə sərvəti deyil, xalqların həyat fəaliyyətinin mənşəyi və səbəblərini  araşdırmışdır. K.Marksın "Kapital" əsərinin predmeti "kapitalist istehsal üsulu və ona müvafiq olan istehsal və mübadilə münasibətləridir"[11, s.6] və o, tam surətdə siyasi iqtisadın inteqral predmeti ilə uzlaşır.

"Ekonomiks" dərsliyinin ayrı-ayrı variantlarında müxtəlif təriflərlə ifadə olunan neoklassikanın predmeti də iqtisadi nəzəriyyənin ümumi predmetinin mahiyyətini əks etdirir. Qənaətə nail olmaq, yaxud ona can atmaq, mövcud xərclər daxilində

maksimum nəticələr əldə etmək və ya həmin nəticələrə nail olmaq üçün xərclərin minimallaşdırılmasına çalışmaq, məqsədlərin seçimi, məqsəd və alternativ məhdud resurslar arasındakı nisbətin optimallaşdırılması, təsərrüfat fəaliyyəti prosesində insanların davranışı və s. neoklassik predmetin ayrı-ayrı tərifləri, xüsusi olaraq insanların yaşayış şəraitinin təmin olunması prosesində resursların daha səmərəli, qənaətcil bölüşdürülməsinə vurğudur. Bu tәriflərin hamısı bu və ya digər dərəcədə cəmiyyətin məhdud resurslarından daha səmərəli istifadə olunması problemini əks etdirir. Ekonomiksin predmetinə yuxarıda verilən təriflərə yaxın tərifə K.R.Makkonnell və S.L.Bryunun "Ekonomiks" dərsliyində rast gəlirik: "Ekonomiks - cəmiyyətin hüdudsuz tələbatlarının (*istehsalın məqsədi*) daha çox və ya maksimum dərəcədə təmin edilməsinə nail olunmasına imkan yaradan nadir resurslardan (*istehsal vasitələrindən*) istifadə və ya onun tətbiqi problemini araşdıran ictimai elmdir. Ekonomiks malik olduqlarımızdan daha yaxşı istifadə yollarını öyrənir"[5, s.38]. Deməli, ekonomiks - səmərəlilik haqqında, məhdud ehtiyatlardan səmərəli istifadə olunması haqqında elmdir. Göründüyü kimi, ekonomiksin predmetinə isteh¬salın iqtisadi səmərəliliyi problemi də daxil edilmişdir.

Əlbəttə, bu, iqtisadi nəzəriyyənin neoklassik istiqamətinin predmetinə verilən tərifin tam, dolğun ifadəsi olmasa da, o iqtisadi nəzəriyyənin ümumi, inteqral predmeti ilə uzlaşır. Belə ki, burada istehsalın məqsədinə nail olmaq üçün keçmiş və canlı əməyə qənaət edilməsinin yollarını araşdıran, ümumi iqtisadi qanundan - vaxta qənaət qanununun fəaliyyətindən söhbət gedir. "Ekonomiks" dərsliklərində iqtisadi nəzəriyyənin predmetinə verilən elmi tərifi siyasi iqtisadın (*marksist*) kateqoriyalarında da şərh etmək olar. Məhdud resurslardan rasional istifadə olunması problemi elə səmərəlilik probleminin olduğu deməkdir. Siyasi iqtisad, ümumiyyətlə, təsərrüfatçılıq nəzəriyyəsi kimi meydana gəlmişdir. K.Marksın "Kapital" əsərinə kapitalist istehsalının səmərəlilik məsələlərini araşdıran, kapitalist iqtisadiyyatında xərc və nəticələrin nisbəti nəzəriyyəsi kimi baxmaq olar [12, s.68]. Siyasi iqtisaddan kənar heç bir təsərrüfat nəzəriyyəsi yoxdur. Ona görə siyasi iqtisadı və ekonomiksi müxtəlif elm kimi bir-birinə qarşı-qarşıya qoymağa heç bir əsas yoxdur. Onlar eyni predmetə malik olsalar da, predmetin ifadə edilməsində müxtəlif çalarlara, qarşıya qoyulan əsas məqsədlərə və vəzifələrə görə, istifadə edilən əsas fəlsəfi metodlara görə fərqlənirlər. Onları iqtisadiyyatın eyni məzmunlu muxtəlif ssenariləri də adlandırmaq olar.

### 5. Müasir iqtisadi nəzəriyyənin struktur hissələri

Müasir iqtisadi nəzəriyyənin predmetinin tərifi problemi, göründüyü kimi, onun hər iki istiqamətinin bir çox nümayəndələrinin diqqət mərkəzində olmuşdur. Zənnimizcə, onun həllində elmin inkişaf tarixini və iqtisadi nəzəriyyənin istiqamətlərinin hazırkı mürəkkəb strukturunu nəzərə almaq olduqca vacibdir. Yuxarıda qeyd edildiyi

kimi, hələ XIX əsrdə onun iki qolu fərqləndirilmişdi: siyasi iqtisadın təmsil etdiyi və məhdud ehtiyatlardan (*resurslardan*) istifadə nəzəriyyəsinin formalaşdırılması ilə bağlı sosial-iqtisadi qolu və qeyd edilən xəttin "ekonomiks"in müasir kurslarla təqdim olunması qolu. Tarixən bu bölgü ötən əsrin əvvəllərində baş vermiş hadisələrlə təsbit edilmişdir. İqtisadi nəzəriyyənin bir istiqamətinin digər istiqamətləri ilə tərəfdaşlıq münasibətinin əsasları keçən əsrin əvvəllərində dünyada baş verən sosial-iqtisadi reallıqların yekunu olaraq ləğv olunmuşdur. Qərb alimlərinin sosial-iqtisadi təhlilə və keçmiş sosialist ölkələri iqtisadçılarının bu yönümlü təhlillərə yanlış münasibəti qeyri-təbii vəziyyətə gətirib çıxarmışdır. XX əsrin sonunda tarixi qarşıdurmanın aradan götürülməsi iqtisadi nəzəriyyənin müasir strukturuna, onun predmetinə və tədqiqat obyektlərinə obyektiv nəzər salmaq üçün əlverişli imkan yaratmışdır.

Vahid predmeti, vahid təhlil və ifadə metodologiyası olan vahid elm kimi "müasir iqtisadi nəzəriyyə", bütün bölmələrində eyni cür şərh olunan kateqoriyalar (*iqtisadi anlayışlar*) sistemi kimi, yəni ümumdünya iqtisadi fikrinin inkişafının həqiqi elmi sintezi, müasir dünya sosial-iqtisadi inkişafının realiləri və tendensiyaları ilə təsdiqlənən əsas nailiyyətlərinin inteqral bilgisi kimi hələ mövcud deyil. Müasir iqtisadi nəzəriyyə, real fakt kimi, hələ ki, nə "üzvi", nə də "inteqral" sistemi deyil, sistemi bilavasitə metodoloji prinsipləri ilə fərqlənən iqtisadi nəzəri istiqamətlərin, doktrinaların məcmusu kimi əks etdirən ümumi bir anlayışdır. Bu yanaşmaya müvafiq olaraq müasir iqtisadi nəzəriyyənin əsas struktur hissələri qismində aşağıdakıları göstərmək olar.

a) Sosial-iqtisadi nəzəriyyə (*siyasi iqtisad*). Onun predmeti bilavasitə cəmiyyətin sosial-iqtisadi sistemini, iqtisadi quruluşunu, onların forma və modellərini araşdırmaq və öyrənməkdir.
b) Məhdud resurslardan rasional istifadə nəzəriyyəsi (*Ekonomiks*). Bu sahənin bilavasitə predmeti isə iqtisadi münasibətlərin mikrosəviyyədə (*mikroiqtisadiyyat*) və makrosəviyyədə (*makroiqtisadiyyat*) həyata keçirilməsinin təhlilini özündə ehtiva edir.
c) İnstitusional iqtisadi nəzəriyyə. Burada isə iqtisadi sistemin məzmunu iqtisadi və digər təsisatların qarşılıqlı əlaqəsi fonunda nəzərdən keçirilir və onların iqtisadiyyatın inkişafına təsiri araşdırılırn[13, s.54].

## 6. Nəticə

Beləliklə, müasir şəraitdə iqtisadi nəzəriyyənin yeni strukturu formalaşır. Bu halda neoklassik istiqamət və formalaşmaqda olan müasir institusional istiqamətlə yanaşı, siyasi iqtisad da sosial-iqtisadi təlim kimi xüsusi rol oynayır və iqtisadi həyatın hərtərəfli təhlilinə xidmət edir. Elmin müxtəlif istiqamətlərinin vəhdəti sayəsində birtərəfli biliklərlə fundamental iqtisadi nəzəriyyə arasında əsas ziddiyyətin aradan qaldırılması həmin nəzəriyyənin potensialının təşkili və iqtisadi nəzəriyyə elminə

praktiki tələbat yaranması üçün böyük əhəmiyyət kəsb edir. Müasir iqtisadi nəzəriyyənin inkişafını bir istiqamətin - məhz məhdud resurslardan səmərəli istifadə (*"meynstrim"*) nəzəriyyəsi ideyalarının təntənəsi kimi təsəvvür etmək, bu istiqaməti müasir dövrdə universal və hətta yeganə elmi nəzəriyyə hesab etmək cəhdləri müasir iqtisad elminin və praktikanın inkişafının real faktlarına, həmçinin MDB ölkələrində iqtisadiyyatın transformasiyası təcrübəsinə birbaşa zidd olmaqla, elmin predmetini birtərəfli təqdim edir. Bu isə elmi məntiqə uyğun gəlmir.

## Ədəbiyyat siyahısı

1. Барр Р. Политическая экономия. В 2-х томах. Том 1: М.:Международные отношения, 1995, 608 с; Том 2: М.: Международные отношения, 1995, 752 с.
2. Маршалл А. Принципы экономической науки. Т.1. М.: Прогресс, 1993.
3. Маршалл А. Принципы экономической науки. Т.3. М.: Прогресс, 1993.
4. Самуэльсон Пол А., Нордхаус Вильям Д. Экономика: Издание 15-е, Пер. с англ. М.: Изд-во Бином, 1997, 800 с.
5. Макконнелл К.Р., Брю С.Л. Экономикс: принципы, проблемы, политика. Том 1, М.: Изд-во Республика, 1992, 399 с.
6. Экономическая теория на пороге XXI века / Под ред. Ю.М.Осипова, В.Т.Пуляева и др. СПб., ТОО ТК "Петрополис", 1996, 416 с.
7. Аристотель. Политика. Т.4. М.: Мысль, 1984.
8. Tusi N. Əxlaqi-Nasir. Bakı: Elm, 1980.
9. Милль Дж. С. Основы политической экономии Т.1. М.: Прогресс, 1980.
10. Самуэльсон П.А. Экономика. Т.1 М.: МГП "Алгон", 1992, 332 с.
11. Marks K. Kapital. 1-ci cild. Bakı: "Azərnəşr", 1969, 758 c.
12. Черковец В.Н. Политическая экономия как наука: историческая тенденция и социальная востребованность // Российский экономический журнал. М.: 1996, №3.
13. Курс экономической теории / Под ред. А.В.Сидоровича: МГУ им. М.В.Ломоносова. 3-е изд., М.: Издательство "Дело и Сервис", 2007, 1088 s.

AZƏRBAYCANIN
VERGİ JURNALI

**Бабаев Алиджан Пириджан оглы**
Д.э.н., проф. Азербайджанский Государственный Экономический Университет (UNEC).

## Аннотация

## Структурные проблемы в современной экономической теории

*Цель исследования* – анализ основных структурных частей современной экономической теории.

*Методология исследования* – диалектический и субъективистский подходы.

*Результаты исследования* – обосновано, что в качестве составных частей структуры современной экономической теории выступают социально-экономическая теория (политическая экономия), теория рационального использования ограниченных ресурсов (экономикс) и институциональная экономическая теория.

*Ограничение исследования* – необходимость многостороннего научного анализа основных структурных частей современной экономической теории.

*Практическая значимость исследования* – полученные результаты исследования и выдвинутые предложения могут быть использованы в процессе преподавания экономической теории.

*Оргинальность и научная новизна исследования* – показаны различия между основными структурными частями современной экономической теории.

**Ключевые слова:** *политическая экономия, экономикс, институциональная экономическая теория, классическая и неоклассическая экономическая теория, трудовая теория стоимости и теория предельной полезности.*

**Babayev Alijan Pirijan oglu**
Prof., Dr., Azerbaijan State University of Economics (UNEC)

## Abstract

### Stuctural problems of the modern economic theory

*Purpose* – analysis of main structural parts of the modern economic theory.

*Design/methodology* – dialectical and subjective approach.

*Findings* – socio-economic theory (political economy) on the basis of main structures of modern economic theory, rational utilization theory (economics) of limited resources and the existence of institutional economic theory have been based on.

*Research limitations* – there is a necessity to study scientifically main structural parts of the modern economic theory.

*Practical implications* – the results of the investigation and the suggested purposes may be useful in the teaching process of economic theory.

*Originality/value* – the major differences of the main parts of the economic theory are worked out in the investigation.

**Keywords:** *political economy, economics, institutional economic theory, classic and neoclassic economic theory, labor-value theory, finalline of usefulness of the theory.*

**JEL Classification Codes:** A11, B4, E0

Məqalə redaksiyaya daxil olmuşdur: 18.04.17.
Təkrar işləməyə göndərilmişdir: 25.04.17.
Çapa qəbul olunmuşdur: 01.06.17.